**Daha bir rayon Statistika İdarəsi üçün yeni inşa edilmiş müasir inzibati bina istifadəyə verilib**



Mayın 7-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ərəfəsində Füzuli Rayon Statistika İdarəsinin yeni inzibati binasının açılışı olub. Xalqımızın ümummilli lideri Heydər Əliyevin Horadiz şəhərinin mərkəzində ucaldılan abidəsi ziyarət olunub, önünə gül dəstələri düzülərək əziz xatirəsi ehtiramla yad edilib.



Füzuli Rayon Statistika İdarəsinin 394 kv.metr sahəsi olan iki mərtəbəli inzibati binası müasir tələblərə cavab verir, kompyuter texnikası, mebel və zəruri avadanlıqlarla təmin edilib. Yeni bina Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 21 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı" çərçivəsində tikilib. Açılış mərasimində Dövlət Statistika Komitəsi sədrinin birinci müavini Vahab Məmmədov, Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev və ictimaiyyət nümayəndələri iştirak ediblər.



Qeyd olunub ki, son illərdə ölkədə rəsmi statistikanın inkişafına dair uğurla icra olunan Dövlət Proqramları nəticəsində yerli statistika orqanlarının işçilərinin iş şəraitinin yaxşılaşdırılması və maddi texniki bazalarının təkmilləşdirilməsi məqsədilə 28 rayon və şəhər statistika idarəsi üçün yeni inzibati binalar tikilib. Bütün bu görülən işlər Prezident İlham Əliyevin statistika sisteminin inkişafına olan diqqət və qayğısının əyani nümunəsidir. Digər çıxış edənlər də yeni binanın tikintisi və burada yaradılan bütün zəruri şəraitə görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.Sonra tədbir iştirakçıları yeni binada yaradılan şəraitlə tanış olublar.



**Dövlət Statistika Komitəsinin Mətbuat Xidməti**

**07.05.2016**